**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**TURANXANIM HİDAYƏT QIZI ŞİRZADOVA**

# AZƏRBAYCAN BƏDİİ MƏDƏNİYYƏTİNİN ESTETİK PRİNSİPLƏRİNİN FORMALAŞMASINDA MUĞAM ƏNƏNƏSİNİN ROLU

6219.01 - Kulturologiya və onun ümumi məsələləri

Sənətşünaslıq üzrə fəlsəfə doktoru alimlik dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI-2015**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Sevil Məmməd Tağı qızı Fərhadova**
*sənətşünaslıq üzrə elmlər doktoru*

**Rəsmi opponentlər:** **Çingiz Əli oğlu Abdullayev**
*kulturologiya üzrə elmlər doktoru, professor*

**Güllü Həsən qızı İsmayılova**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru*

**Aparıcı təşkilat:** **Üzeyir Hacıbəyli adına**
**Bakı Musiqi Akademiyası**

Dissertasiyanın müdafiəsi "10___"___12 2015-ci il saat "___" Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində yaradılmış FD.02.091- Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1065, Bakı şəhəri, Həsənbəy Zərdabi küç., 39 [a]

Dissertasiya ilə ADMİU-nun kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_____" __________ 2015-ci ildə göndərilmişdir.

FD.02.091- Dissertasiya Şurasının elmi katibi,
kulturologiya üzrə fəlsəfə doktoru,
dosent: **F.R.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Uzun müddətdir ki, dünyada Azərbaycanın milli mədəniyyəti geniş şəkildə təbliğ edilir. Öz suverenliyini qazandıqdan sonra Azərbaycan dövləti tərəfindən qeyri-maddi mədəniyyətin, xüsusilə də muğam irsinin qorunub saxlanılması və bütün dünyada tanınması istiqamətində həyata keçirilən tədbirlər bilavasitə elmi fikrin inkişafına da öz təsirini göstərir. Bu baxımdan, milli köklərə qayıdış, xüsusilə də son dövrlər "Muğam irsi Azərbaycan milli mədəniyyətinin bünövrəsidir", "Muğam Azərbaycan xalqının genetik kodudur" kimi fikirlərin səsləndirilməsi muğam mədəniyyətinin araşdırılmasını daha da aktuallaşdırır. Qeyd edilən bütün bu fikirlər Azərbaycanın mənəvi sərvəti olan muğama verilmiş yüksək qiymətdir. Təsadüfi deyil ki, Heydər Əliyev Fondunun prezidenti, YUNESCO-nun və İSESCO-nun Xoşməramlı Səfiri Mehriban Əliyeva 2009-cu ildə keçirilən "Muğam aləmi" Beynəlxalq Muğam Festivalının açılışında "Muğam bizim qəlbimizin xüsusi məqamıdır. Bu xüsusi məqam rasionallıqla irrasionallığın, mümkün olanla mümkünsüzlüyün, arzu edilənlə əlçatmazın sərhədində səltənət qurur" fikrini səsləndirmişdir.[1] Bütün qeyd edilənlər indiki dövrdə muğam irsinin konseptuallığının, mahiyyətinin dərk olunması üçün bu unikal fenomenin hərtərəfli araşdırılmasının vacibliyini bir daha sübut edir.

Qarşıya qoyulmuş problemin aktuallığı, ilk növbədə, mədəni siyasətlə bağlıdır. Məlumdur ki, uzun illər Azərbaycan vahid Sovetlər birliyinin ideologiyasının təsiri altında olmuşdur. Vahid mərkəzin yeritdiyi ideologiyanın əsas məqsədi müxtəlif xalqları ruslaşdırmaq, onların təfəkküründən milli özünüdərki silmək və assimilyasiya etmək idi. Lakin Azərbaycan dövləti öz suverenliyini qazandıqdan sonra özünüdərk, özünütəsdiq, milli köklərə qayıdış məsələsinə xüsusi diqqət yetirilməyə, mədəni irsimizin dərindən araşdırılması, onun yenidəndərki istiqamətində fəaliyyət göstərilməyə başlandı. Muğam

[1]Əliyeva M. "Azərbaycan muğamı müasir dünyada". // "Muğam aləmi" Beynəlxalq Elmi Simpoziumunun materialları. 18-20 mart, 2009-cu il. Bakı, "Şərq-Qərb", 2009, s.3.

mədəniyyətinin konseptual fikir, ruhi özək kimi dərki, tədqiq olunması da bütövlükdə Azərbaycan mədəni irsinin öyrənilməsində, eyni zamanda gənc nəslin mədəni zövqünün formalaşmasında mədəni siyasət bazası kimi qəbul edilə bilər.

Qarşıya qoyulmuş problemin aktuallığını şərtləndirən digər səbəb indiki dövrdə bütün dünyada qloballaşma prosesinin getməsi ilə əlaqədardır. Ənənəvi mədəniyyətin özünəməxsusluğunun itirilməsi təhlükəsinə zəmin yaradan qloballaşma prosesindən kənarda qalmaq qeyri-mümkündür. Bu baxımdan, dünya mədəniyyətinə inteqrasiya prosesi milli kimliyin, Azərbaycan milli mədəniyyətinin özünəməxsusluğunun qorunub saxlanılması şərtilə həyata keçə bilər.

Tarixə ekskurs etdikdə mütəmadi olaraq Azərbaycan xalqının maddi və mənəvi dəyərlərinin başqa xalqlar tərəfindən mənimsənilməsi hallarını görürük. Lakin hər bir xalqın ənənəvi mədəniyyətlə, bədii irslə bağlı məlumatı nəsildən-nəsilə ötürən genetik yaddaşı vardır. Muğam irsi məhz həmin genetik yaddaşla ötürülən bilikdir. Bu baxımdan, muğam irsinin konseptual məzmununun, mahiyyətinin dərindən araşdırılması mədəni irsin bütün sahələrinin (musiqi, dekorativ-tətbiqi sənət, təsviri sənət, teatr və s.) vahid təfəkkür tipi tərəfindən yaradıldığını və bu səbəbdən də vəhdət halında öyrənilməsini şərtləndirir.

Uzun illər istər elm, istərsə də mədəniyyət sahəsi rasional, yəni Qərb dünyagörüşü mövqeyindən tədqiq edilmişdir. Vaxtilə bu mövqe elmi potensialın inkişafına müsbət təsir göstərmişdir. Lakin indiki dövrdə düşüncə paradiqmasının dəyişilməsi elmi fikirdə qarşıya qoyulmuş problemlərin fərqli baxış bucağından işıqlandırılmasını tələb edir. Belə ki, mənəvi mədəniyyət, mədəni irs və bu kimi bir sıra məsələlərin yalnız rasional mövqedən araşdırılması lazımi nəticəni vermir. Rasional mövqe eyni zamanda Şərq mədəniyyətinin tərkib hissəsi olan Azərbaycan mədəniyyətinin mahiyyətinin dərkinə, mədəni irsimizdə Şərq dünyagörüşünün izlərinin təzahürü ilə bağlı fikirlərin səsləndirilməsinə baxmayaraq, sözün əsl mənasında, məsələnin dərinliyinə nüfuz etməyə zəmin yaratmır. Başqa sözlə, bütün mədəni irsin qrammatikasını izah etdiyi, həmçinin bütövlükdə Şərq aləminin dərkində açar rolunu oynadığı halda idrak üsulu ilə şərtlənən Şərq dünyagörüşünün konseptuallığına, spesifikliyinə diqqət yetirilmir. Buna görə də müəyyən dövr

ərzində mədəniyyətin vahid sistem kimi öyrənilməsi əvəzinə qarşılıqlı əlaqədə olan sahələrin ayrı-ayrılıqda tədqiqi və eləcə də bu sahələrə aid nəzəri və təcrübi problemlərin rasional (birtərəfli) mövqedən araşdırılmasının nəticələri elmi fikrin inkişafının sonrakı mərhələlərinə öz təsirini göstərmişdir.

İndiki dövr dəqiq və humanitar elm sahələrinin inteqrasiyası, müəyyən problemin elmin müxtəlif sahələri tərəfindən araşdırılması, yəni multidistiplinar tədqiqatların aparılması ilə əlamətdardır. Hal-hazırda bu tendensiyanın geniş yayılması zamanın tələbindən irəli gəlir. Muğam ənənəsinin öyrənilməsi də bilavasitə həmin tendensiya ilə bağlıdır. Belə ki, muğamın məhz təfəkkür tipi, konseptual mənadaşıyıcısı kimi dərk edilməsi daha fundamental, yəni yaradıcılıq-nurlanma, milli mədəni bütövlük və sinkretizm fenomeni, musiqi və din kimi məsələlərin işıqlandırılmasında açar rolunu oynaya bilər. Buna görə də Azərbaycan bədii mədəniyyətinin muğam ənənəsi kontekstində araşdırılması bütün ümumbəşəri mədəniyyətin öyrənilməsinə zəmin yaradır.

**Mövzunun işlənmə dərəcəsi**. Müəyyən edilmişdir ki, elmi mənbələri sovet dövrünə qədər, sovet dövründə və Sovetlər birliyinin dağılmasından sonra yazılmış araşdırmalara bölmək olar. Xüsusilə vurğulanmalıdır ki, hələ müstəqilliyimiz əldə edilən dövrə qədər aparılmış araşdırmalar öz zamanında elmi fikrin inkişafında və bir neçə alimlər nəslinin yetişməsində mühüm rol oynamışdır. Lakin Sovet dövründə əldə edilmiş nailiyyətlərin əhəmiyyətli olmasına baxmayaraq, bütövlükdə elmi fikirdə irrasional təfəkkür, Şərq dünyagörüşü ilə bağlı suallar bəzən cavabsız qalır, bəzən isə dolayı yolla işıqlandırılır. Bu da düzgün qoyulmuş sualların, geniş əhatə dairəsinə aid məsələlərin ideologiyanın diqtəsi ilə birtərəfli mövqedən araşdırılmasından irəli gəlir.

Lakin respublikamız öz suverenliyini əldə etdikdən, məhdudiyyətlər aradan qaldırıldıqdan sonra Azərbaycan elmi fikrində yeni meyillər izlənilməyə başlandı. Düşüncədə ətalətin olmasına baxmayaraq, bir çox tədqiqatlarda irrasional təfəkkürün, Şərq dünyagörüşünün məntiqi dərkinə ehtiyac yarandı. Bunu yalnız elmdə deyil, incəsənətdə də izləmək olar. Məsələn, estetika elmi sahəsində «Средневековая мусульманская культура: эстетика проявленного и

философия сокрытого»[2]; sənətşünaslıq sahəsində «Обретение пути»[3]; «Манифест нон-актуального: отворить дверь»; «Типология искусства и диалог культур в контексте проблемы традиции»[4]; «Неклассическая феноменология и постмодернизм»; musiqi sahəsində «Принцип не конкретного как источник духовного знания»[5]; «Метафизика творческого процесса как точка схождения иррационального и рационального полей знания» və s. mənbələr buna misal ola bilər. Aparılan axtarışlarda tədqiqatçıların məqsədi elmi fikirdə mövcud məsələlərin dərinliyini duyaraq, ümumi mənzərənin yaratmaqdır.

İndiki dövrdə elmin müxtəlif sahələrinin mütəxəssisləri tərəfindən musiqi, səs fenomeninin dərk edilməsinə böyük maraq göstərilir. "Musiqi nədir?" sualı artıq çoxdan öz cavabını tapsa da, XX əsrdən etibarən bu fenomenin mahiyyəti, ruhi dərketmə ilə bağlılığı onu musiqiçilərin, nəzəriyyəçilərin və sənətşünasların tədqiqat obyektinə çevirmişdir. Bu da müasir dövrün fəlsəfi fikrinin rasionallıqdan uzaqlaşması və qeyri-rasional düşüncə tərzinə istiqamətlənməsini nümayiş etdirir. Musiqinin mahiyyətinin bu mövqedən dərki A.Losevin[6], B.Asafyevin[7], İ.Gerasimovanın[8], M.Qladkovanın[9], V.Qriqoryevin[10], M.Yesipovanın[11],

---

[2]Мехти Н. «Средневековая мусульманская культура: эстетика проявленного и философия сокрытого». Баку, 1996, 192 с.

[3]Даими Т. «Обретение пути». Баку, 1996, 33 с.; «Манифест нон-актуального: отворить дверь». // Mədəniyyət: postqeyri-klassika və postmodernizm dövrü. Bakı, "Elm və Təhsil". 2015. s. 230-252.

[4]Байрамов Т. «Типология искусства и диалог культур в контексте проблемы традиции». Bakı, «Элм». 2010, 231с.; «Неклассическая феноменология и постмодернизм». // Mədəniyyət: postqeyri-klassika və postmodernizm dövrü. Bakı, "Elm və Təhsil". 2015. s. 258-263.

[5]Фархадова С.М. «Принцип не конкретного как источник духовного знания». // Müasir Fəlsəfə, Elm, və Mədəniyyət: postqeyri-klassik epistemologiya. (Respublika konfransının materialları 18 may 2011). Bakı, "Təknur". s.396-405; «Метафизика творческого процесса как точка схождения иррационального и рационального полей знания» // Mədəniyyət: postqeyri-klassika və postmodernizm dövrü. Bakı, "Elm və Təhsil". 2015. s. 252-258.

[6]Лосев А. Музыка как предмет логики. 1-е изд.: Москва, Изд. автора, 1927. // https://ru.wikipedia.org/wiki/

[7]Асафьев Б.В. «Музыкальная форма как процесс». Ленинград, 1963, 376с.

[8]Герасимова И.А. «Природа живого и чувственный опыт». // Вопросы философии. №8. 1997, с.123-134.

[9]Гладкова М.П. «Диалектика постижения смысла музыки». автореф.на.соис.уч.степ.канд.филос.наук. Тюмень, 2005.

M.Marutayevin[12], R.Menonun[13], Y.Xolopovun[14], V.Xolopovanın[15], T.Çeredniçenkonun[16] və b. araşdırmalarında işıqlandırılmışdır. Maraqlıdır ki, aparılan tədqiqatların mənbəyində səs fenomeni, səslənən musiqi dayanır. Məntiqi, dəqiq elmlərin nümayəndələrinin musiqiyə olan marağı da məhz səsin mahiyyətini, eləcə də, dərketmə prinsipini, yaradıcılıq fenomenini qavramaq ehtiyacından irəli gəlir. Məsələn, Lütfi Zadənin "Qeyri-səlis nəzəriyyəsi" buna nümunə ola bilər.

Vurğulamaq istərdik ki, musiqi kimi unikal fenomen fənnlərarası araşdırılmanı tələb edir. Bu da musiqinin çoxfunksiyalı bir təzahür forması, səsin sinkretik hadisə olmasından irəli gəlir. Son zamanlar elm sahəsində gedən inteqrasiya prosesində, müxtəlif sahələrin vahid fikir ətrafında birləşməsini, yeni istiqamətlərin meydana gəlməsini müşahidə etmək mümkündür. Müasir dövrdə mədəniyyətin müxtəlif sahələrinin vahid prinsip ətrafında birləşməsi, vahid dil konsepsiyasının mövcudluğu "komparativistika" elminin meydana gəlməsi ilə nəticələnmişdir. Musiqinin yalnız bədii mədəniyyəti deyil, eləcə də elmin müxtəlif sahələrini öz ətrafında birləşdirən vahid prinsip, vahid dil kimi dərki bir sıra sualların cavablandırılmasına şərait yarada bilər.

Qeyd edək ki, bədii mədəniyyətin komparativ araşdırılmasına göstərilən ilk cəhd hələ Sovet dövründə həyata keçirilmişdir. Bu məsələ XX əsrin 60-cı illərində bədii mədəniyyətin müxtəlif sahələrində ritm məfhumunun konseptuallığını tədqiq etməyə çalışan Sovet tədqiqatçılarının diqqətini cəlb edərək, bir çox konfrans və simpoziumlarda işıqlandırılmışdır. Ədəbiyyatşünasların, sənətşünasların qeyd

---

http://www.dissercat.com/content/muzykalnoe-proizvedenie-kak-sposob-poznaniya-deistvitelnosti

[10]Григорьев В. «Эзотерическая сущность музыки». // Катарсис. Научно-художественный альманах, вып.2. Москва, «Сфера», 1998. http://www.superidea.ru/intel/psy/music.htm

[11]Есипова М.В. «Музыкальное видение мира и идеал гармонии в древнекитайской культуре». // «Вопросы философии». №6. 1994, с.82-88.

[12]Марутаев М.А. «О гармонии». // «Вопросы философии». №6. 1994, с.71-81.

[13]Менон Р.Р. «Звуки индийской музыки: Путь к раге». Москва, «Музыка». 1982, 80с.

[14]Холопов Ю.Н. «О сущности музыки». // «Юрий Николаевич Холопов и его научная школа». Москва, 2004, с.6-17. http://www.kholopov.ru/essence.html

[15]Холопова В. «Теория музыкальных эмоции: опыт разработки проблемы». // «Музыкальная академия». №1. 2009, с.12-19.

[16]Чередниченко Т.В. «Тенденции современной западной музыкальной эстетики». (К анализу методологических парадоксов науки о музыке.) Москва, «Музыка». 1989, 223с.

olunan mövzuya marağı "Ритм, пространство и время в литературе и искусстве"[17] toplusunun meydana gəlməsi ilə nəticələnmişdir.

Xatırladaq ki, Azərbaycan elmi fikrində də ayrı-ayrı sahələr arasında ümumi cəhətlərin aşkar edilməsinə cəhd göstərilmişdir. Bu mənada, ilk dəfə olaraq elm və incəsənət sahələri arasında əlaqə, yəni təbiətin strukturlaşma prinsiplərinin musiqi, formal incəsənət nümunələrinin əsasını təşkil etməsi ilə bağlı fikirlər X.Məmmədovun "Naxışların yaddaşı"[18] əsərində əksini tapmışdır. Öz əsərində X.Məmmədov kristalların strukturunda və türk mədəniyyətinin memarlıq abidələrinin ornament dekorunda müşahidə edilən formayaradıcı prinsiplərin ümumiliyini sübuta yetirmiş, elm və incəsənət sahələrinin keçmişdə vahid bilik sahəsi kimi bir başlanğıcdan qaynaqlandığını nümayiş etdirmişdir.

Mənbələrlə tanışlıq, musiqinin elm sahəsi kimi araşdırılmasını, muğam mədəniyyətinin fəlsəfi mahiyyətinin, estetik mənadaşıyıcısı kimi tədqiq edilməsini göstərir.[19] Lakin bununla yanaşı, muğamın unikal fenomen kimi öyrənilməsi, bir tərəfdən, onun mahiyyətinin, digər tərəfdən, daha geniş kontekstdə işıqlandırılaraq dərketmə prinsipi, yaradıcılıq fenomeni kimi qavranılmasına zəmin yaradır. Bu da elmi fikirdə fundamental məsələlərə marağın artdığı, onların qavranılmasına ehtiyacın duyulduğu zamanın çağırışından irəli gəlir. İndiki dövrdə musiqinin məhdud çərçivədən çıxaraq, çoxfunksiyalı bir hadisə kimi araşdırılmasını da məhz bu şərtləndirir. İlk araşdırmalardan biri kimi «МУГА-монодия как тип мышления»[20] mənbəsini göstərmək olar. Həmin mənbədə idrak prinsipi, Şərq təfəkkür tərzi paradiqması, yaradıcılıq-nurlanma fenomeni inikas olunur. Bütün qeyd edilənlər irrasional təfəkkür, Şərq dünyagörüşünün dərki məsələsinə meyillərin istənilən coğrafiyada mövcudluğunu və bu tendensiyanın daim

---

[17]«Ритм, пространство и время в литературе и искусстве». Сб.ст. Ленинград, «Наука». 1974.

[18]Məmmədov X. "Naxışların yaddaşı". Bakı, 1981, 46s.

[19]Səfərova Z. "Azərbaycan musiqi elmi". XIII-XX əsrlər. Bakı, "Elm". 1998, 583s.; Абдуллазаде Г. «Философская сущность Азербайджанских мугамов». Баку, «Язычы». 1983, 39с.; Мамедова Р. «Музыкально-эстетические особенности азербайджанских мугамов». Баку, «Знание». 1987, 53с.

[20]Фархадова С.М. «МУГА-монодия как тип мышления». Баку, «Элм». 2001, 368с.

gücləndməsini göstərir. İndiki dövrdə bu tendensiyaya marağın dayanmadan artması insanın aşkar olunmuş potensial imkanlarını yenidən dəyərləndirməsi ilə bağlıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** XX-XXI əsrin keçidində incəsənət sahəsində baş verən transformasiyalar incəsənət anlayışını sual altına qoydu. Bir çox əsərlər klassik incəsənətə aid olan Ahəngdarlıq, Kamillik, Gözəllik məfhumlarından, incəsənət isə öz dərin ruhi əsasından uzaq düşdü. Qeyd edilən proseslər musiqidə də izləmək mümkündür.

Ötən XX və XXI əsrlər musiqinin təşəkkülündə, onun mahiyyətində, mədəniyyətin inkişafında nəhəng dönüş dövrü kimi qiymətləndirilir. Y.Xolopovun sözləri ilə desək, bu "həddən artıq insaniliyin inkarının qanunauyğun nəticəsi kimi kosmizmin bərqərar olmasına doğru hərəkətlə" bağlıdır. Bu mənada, tədqiqatın əhəmiyyəti bədii mədəniyyətin mövcudatın ruhi əsası ilə əlaqəsində özünü göstərir.

Azərbaycan mədəniyyətində ruhi özək muğam fenomenində əksini tapır. Muğam fenomeni ümumbəşəri başlanğıcın təzahürüdür. Bu baxımdan, tədqiqat işinin məqsədi ruhi axtarış-təşəkkül, daxili prosesin dinamikası kimi dərk edilən muğam mədəniyyətinin bütövlükdə ənənəvi irsin, xüsusilə də dekorativ-tətbiqi sənət, miniatür sənəti, təsviri sənət sahələrinin konseptual əsası kimi araşdırılması, Azərbaycan bədii mədəniyyətinin vahid etnomədəniyyət çərçivəsində deyil, ümumbəşəri mədəniyyət kontekstində işıqlandırılması və yenidəndərki ilə bağlıdır.

Tədqiqatın məqsədini həyata keçirmək üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

1.Muğam Azərbaycanın vahid ənənəvi mədəni irsinin ayrı-ayrı sahələrinin (dekorativ-tətbiqi sənət, təsviri sənət, miniatür sənəti) müxtəlifliyi ilə təqdim edilmiş kök sistem kimi.

2.Ənənəvi mədəniyyətin müxtəlif sahələrində əsas göstəricilərin izlənilməsi.

3."Batin-zahir" nisbətində ifadə olunmuş mədəni inkişafın iki faktorluğunun nəzərə alınması ilə tədqiqatın aparılması.

4."Mən"in "mən deyiləm"ə transformasiyası mərasim, oyun, teatr tamaşalarının dramatik xətti kimi.

5.Fundamental məsələləri dərk etməklə onun başqa sahələrdə (dekorativ-tətbiqi sənət, təsviri sənət, miniatür sənəti) təzahür formalarının əyani sübutunun əldə olunması.

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqatın metodoloji əsası qismində ontoloji, fenomenoloji, fəlsəfi, kulturoloji yanaşmalardan, komparativ, eləcə də bədii mədəniyyət nümunələrinin xüsusi elmi (sənətşünaslıq), həmçinin müqayisəli təhlili metodlarından istifadə edilmişdir.

Tədqiqat işində ontoloji yanaşma şüur konsepsiyası ilə bağlıdır. Fəlsəfi yanaşma mövqeyi ənənəvi irsdə metafizik tərəfin yaradıcılıq nurlanma ilə əlaqəsini müəyyən etməyə zəmin yaradır. Fenomenoloji yanaşma ruhi təşəkkülün, irrasional təfəkkürün, bütövlükdə isə prosesin mahiyyətinin dərkində mühüm əhəmiyyət daşıyır. Kulturoloji yanaşma bədii mədəniyyətin müxtəlif sahələrində "ana xətt" kimi keçən vahid prinsipin müəyyən edilməsini şərtləndirir. Sənətşünaslıq təhlilləri bədii mədəniyyətin dekorativ-tətbiqi sənət, təsviri sənət, miniatür sənəti sahələri arasında bağlılığın aşkar olunmasına və onu şərtləndirən səbəblərin izahına zəmin yaradır.

Tədqiqat işinin metodoloji əsasını şüur konsepsiyasına istinad təşkil edir. (S.Fərhadova) Onun spesifikliyi idrak prosesində, yaradıcılıq fəaliyyətində məntiqi təfəkkürlə yanaşı, irrasional təfəkkürün fəaliyyətinin fəallığının dərki ilə bağlıdır. İrəli sürülən konsepsiya keçmiş dövrün düşüncə tərzinə, eləcə də Şərq dünyagörüşünə, zərdüştlikdə "xeyir-şər", Çin fəlsəfəsində "in-yan" binar münasibətlərinə, "batin-zahir" düsturuna əsaslanır. Tədqiqat işində həmçinin Yaxın (Əl-Kindi, Əl-Fərabi, İbn-Sina) və Uzaq Şərqin (Konfutsi, Lao-Tszının) mütəfəkkirlərinin baxışları dəyərli hesab edilir. Bütövlükdə prosesin, xüsusilə də irrasional təfəkkürün, Şərq dünyagörüşünün məntiqi yolla dərki ilə bağlı bu konsepsiya indiki dövrün elmi fikrinin uzun illər təşəkkül yolu keçərək yenidən başlanğıc məqamına qayıtması tendensiyasına aydınlıq gətirir.

Tədqiqat işinin əsasında musiqinin, xüsusilə də muğamın mahiyyətinin dərki dayanır. Səsin sinkretikliyi, ruhi dünyanın, prosesin başlanğıc kimi dərki əsas götürülür. Xatırladaq ki, "sinkretizm" termini hər şeyin inkişafının ilkin başlanğıcı

üçün xarakterik olan bütövlük, bölünməzlik" kimi izah edilir.[21] Lakin bəzən incəsənətin müstəqil inkişaf edən sahələrinin bir vəhdət kimi öyrənilməsində "sinkretizm" termini əvəzinə yanlış olaraq "sintetizm", "sintetik incəsənət" terminlərindən istifadə edilir.[22] Dünyanı qavrayan, maddi və ruhi təzahürləri bütün zənginliyi ilə əks etdirən təfəkkürün sinkretizmi bədii mədəniyyətin dillərinin müxtəlifliyində, ənənəvi irsin mahiyyətinin dərkinin məhsuldarlığında özünü büruzə verir. Buna görə də "ikinin təki" prinsipi, şüur konsepsiyası ənənəvi irsin izahında əvəzedilməz metodoloji əsasdır.

Xatırladaq ki, Sovet dövründən sonra Şərq dünyagörüşünə oxşar və erkən dövrün dünyagörüşü ilə səsləşən digər metodologiyalar da mövcuddur. Daimi təşəkkül-yeniləşməyə istiqamətlənən "sinergetika" metodu bu qəbildəndir. Ruhi söz kimi "sinergiya" - müxtəlif, yəni səmanın və yerin enerjilərinin birləşməsi, gerçəkliyin iki obyektinin-substansional və insanın qovuşması kimi izah edilir. Lakin "sinergetika" metodundan fərqli olaraq, şüur konsepsiyasında həm məntiqi, həm də irrasional təfəkkürün fəaliyyətinin fəallığının nəzərə alınması, onun bütövlükdə Şərq, xüsusilə də Azərbaycan idrak metrinə uyğun gəlməsi ənənəvi irslə bağlı məsələlərin izahını mümkünləşdirir. Bütün bunlar tədqiqat işində komparativ, kulturoloji, koqnitiv yanaşma metodlarına müraciətin səbəblərini izah edir.

Tədqiqat işində bədii mədəniyyətin ruhi dünya ilə bağlılığını işıqlandıran tədqiqatlar (B.Didenko) əsas götürülmüşdür.

Aparılan elmi araşdırmalarda musiqinin incəsənət sahəsi kimi işıqlandırılmasına alternativ olan musiqinin substansiya kimi tədqiqinə istinad edilmişdir. Bu mənada, musiqinin fenomenologiyası (A.Losev), fundamental musiqi-nəzəri əsərləri (B.Asafyev, K.Zenkin, V.Meduşevskiy, Y.Xolopov, V.Xolopova) xüsusi metodoloji əsas götürülmüşdür.

Tədqiqatda musiqi (səs) fenomeninin dərkində səsin nəzəri eksplikasiyası ilə bağlı araşdırmalara istinad edilmişdir. Burada səs fenomeni (M.Yesipova,

---

[21]Ожегов С.И. «Словарь русского языка». Москва, «Русский язык». 1988, с.586.
[22]Гусев В.Е. «Эстетика фольклора». Ленинград, «Наука». 1967.

T.Qriqoryeva), səs-rəng sintezi ilə bağlı konsepsiyalardan (V.Vanslov, Y.Raqs, İ.İtten) istifadə edilmişdir.

Tədqiqatın gedişində kulturoloji yanaşma metoduna istinad edilmişdir (N.Mehdi, T.Daimi, T.Bayramov).

Tədqiqatın aparılmasında incəsənətin bəzi sahələrinin müqayisəli təhlili metoduna müraciət edilmişdir (R.Məmmədova, G.Şamilli, Ş.Şükürov).

**Tədqiqatın elmi yeniliyi**. Aparılan tədqiqat işinin yeniliyi muğamın kök sistem, ruhi özək, konseptual əsas kimi dərki, rasional və irrasional tərəfləri nəzərə almaqla və bunun əsasında Azərbaycan mədəni irsinin dilinin spesifikliyinin müəyyən edilməsi ilə əlaqədardır.

Tədqiqat işində ilk dəfə olaraq Azərbaycan dekorativ-tətbiqi sənət, miniatür sənəti, təsviri sənət sahələri təfəkkürün iki faktorluluğuna, şüur konsepsiyasına əsaslanaraq, ruhi axtarışın, daxili prosesin dinamikasının, ümumdünya ahəngdarlıq qanununun təzahür formaları kimi araşdırılmışdır. Dissertasiyada ilk dəfə olaraq muğam irsi fəlsəfi-kulturoloji kontekstdə araşdırılmış, bədii mədəniyyətin dekorativ-tətbiqi sənət, miniatür sənəti və təsviri sənət sahələrinə aid nümunələr “batin-zahir” düsturunun, “həyat-ölüm” nisbətinin, ruhi özək kimi qavranılan muğam dramaturgiyasının vizual ekvivalentləri kimi öyrənilmişdir. Ümumdünya qanunu kimi dərk edilən, ruhi axtarış, idrak prinsipindən yaranan ahəngdarlıq məfhumunun - akustik (səs) və vizual (kompozisiya quruluşunda, naxışlarda, rəng koloritində) ifadə üsulları araşdırılmışdır. İlk dəfə olaraq toplanmış əyani nümunələr timsalında, yəni bəzi dekorativ-tətbiqi sənət, eləcə də miniatür sənəti nümunələrinin kompozisiya quruluşu ilə muğam-dəstgahın strukturunun müqayisəli təhlili aparılmış və illüstrasiyalarla əsaslandırılmışdır. Bütün qeyd edilənlər və eləcə də tədqiqatçının öz müşahidələri yeni ehtimalların irəli sürülməsinə zəmin yaratmışdır.

Tədqiqatda ilk dəfə olaraq müasir dövrə aid dekorativ-tətbiqi sənət, miniatür sənəti, eləcə də Azərbaycanın məşhur rəssamlarının əsərlərində muğamın dramaturgiyası, hal-əhvaldan doğan biliyin vizual ekvivalentlərinin müəyyən

edilməsi ilə bağlı müşahidələr aparılmışdır. İlk dəfə olaraq tədqiqat işində aparılan müqayisəli təhlillər dissertasiyaya cəlb edilən əlavələrlə əsaslandırılmışdır.

**Tədqiqatın predmeti.** Azərbaycanın mədəni irsinin rəngarəngliyinin vahid konseptual əsası.

**Tədqiqatın obyekti.** Vahid ruhi özək olan muğam ənənəsinin dekorativ-tətbiqi sənət, miniatür sənəti, təsviri sənət sahələrində müxtəlif təzahür formaları.

**Dissertasiya işinin nəzəri-təcrübi əhəmiyyəti**. Dissertasiyada dekorativ-tətbiqi sənət, miniatür sənəti, təsviri sənət sahələrinin ruhi özək olan muğam ənənəsinin vizual təzahür formaları kimi işıqlandırılması tədqiqatın praktiki əhəmiyyətini şərtləndirir. Qarşıya qoyulmuş problemin müxtəlif fənlərin qovuşağında araşdırılması tədqiqat işinin elm, tədris və mədəniyyət müəssisələrində istifadə edilə biləcək lazımi vəsait olduğunu göstərir. Tədqiqat işinin əsas müddəaları Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Kulturologiya", "Musiqi sənəti", "Rəssamlıq", Bakı Musiqi Akademiyasının, eləcə də Azərbaycan Milli Konservatoriyasının "Musiqi nəzəriyyəsi", Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "Sənətşünaslıq", "Rəssamlıq" fakültələrində, həmçinin Musiqi Kolleci, Rəssamlıq Texnikumunda təhsil alan tələbələrin, eləcə də milli mədəniyyətimizi, xüsusilə də muğam mədəniyyətini konseptual mənadaşıyıcısı kimi qavramağa çalışan müxtəlif sahələrin mütəxəssislərinin marağını cəlb edə bilər.

**Dissertasiyanın aprobasiyası**. "Azərbaycan bədii mədəniyyətinin estetik prinsiplərinin formalaşmasında muğam ənənəsinin rolu" adlı dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun "Estetika və informasiya mədəniyyəti" şöbəsində keçirilmiş geniş iclasda müzakirə edilmiş və müdafiəyə təqdim olunmuşdur. Tədqiqat işinin ayrı-ayrı müddəaları və nəticələri Azərbaycanda, Türkiyədə, Qazaxıstanda nəşr edilmiş müxtəlif elmi toplu və jurnallarda, həmçinin respublika və beynəlxalq konfranslardakı çıxışlarda işıqlandırılmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, 3 fəsil, yarımbölmələr, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, problemin işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi şərh edilmiş, tədqiqatın metodoloji əsası və dissertasiya işinin nəzəri-təcrübi əhəmiyyətindən bəhs olunmuşdur.

Dissertasiyanın **I fəsli - "Muğam Şərq mədəniyyətinin konseptual bünövrəsi kimi"** adlanır və beş yarımbölmədən ibarətdir.

Birinci yarımbölmə **"Şərq idrak sistemi kontekstində muğam və estetika anlayışlarının dərk edilməsi"** adlanır. Şərq, eləcə də müsəlman dünyagörüşündə "estetika" məfhumu ruhi təşəkkül prosesi, "mən"in "mən deyiləm"ə transformasiyası, daxili prosesin dinamikası kimi dərk edilirdi. Şərq dünyagörüşü daimi və dəyişilənin nisbəti üzərində köklənmişdir. Daimilik – ruhi axtarış, proseslə bağlıdır. Bu baxımdan, müsəlman dünyagörüşündə mövcud olan "elm-əməl" düsturu da məhz ahəngdarlığın axtarışı və ahəngdarlığa əməl etmək, yaxud ahəngdarlığın rezonansını yaratmaq kimi qavranılmışdır. Şərq dünyagörüşünün Qərb dünyagörüşündən fərqi də məhz bununla bağlıdır.

Tədqiqat işində "estetika" sözünün (yunan dilindən tərcümədə aesthetikos- "hissi dərk" deməkdir) elmə yalnız XVIII əsrin ortalarında (A.Baumqarten tərəfindən) daxil olmasına baxmayaraq, gözəllik haqqında ilkin təsəvvürün ölçü, ölçüyə uyğunluq sözləri, yəni yüksək mənada "ahəngdarlıq"la əlaqələndirilməsinin hələ qədim Şərq dünyagörüşündə özünü büruzə verməsi qeyd edilmişdir.

Bu yarımbölmədə eyni zamanda "musiqi" sözünün ərəb, fars, türk dillərindən "musiqi" kimi tərcümə edilərək, bu mənaya yalnız XVIII-XIX əsrlərdən, yəni Yaxın və Orta Şərqdə modernləşmə dövründən başlayaraq uyğunlaşmasına baxmayaraq, qeyd olunan zamana qədər başqa cür adlandırılmasından bəhs edilmişdir. Orta əsrlərin musiqi risalələrində "musiqi"nin incəsənət sahəsi deyil, daha geniş mənada ahəngdarlıq kimi işıqlandırılması xüsusi vurğulanmışdır.

**“Daxili prosesin ahəngdarlığı dünyanın elmi dərkinin bədii forması kimi”** adlanan ikinci yarımbölmədə bəşəriyyətin erkən dövrlərində dünyanın qavranılması ilə bağlı məsələlər işıqlandırılmışdır.

Tədqiqat işində qeyd edilir ki, indiki dövrdə dünyanın konstruktiv, yəni məntiqlə dərk olunan qaydalara istinad edilərək qavranılmasına baxmayaraq, dərketmə prosesində ruhi, irrasional tərəfin iştirakı da nəzərə alınır. Bu baxımdan, irrasional və rasional təfəkkür bəzən “nüfuzedici və əksetdirici”, “dərkdənöncəki və dərkedici”, “aram yuxular və sürətli yuxular” kimi də adlandırılır.

Qeyd edilmişdir ki, ruhi dərketmənin spesifikliyi dünya haqqında bilgilərin qeyri-verbal yolla çatdırılmasında özünü büruzə verir. Məsələn, Azərbaycan ərazisində yaşayan ibtidai insanların ruhi təfəkkürünün hələ Azıx dövründə formalaşması (“forma hissi”nin yaranması, məkan münasibətləri, ölçü hissinin dərki, musiqinin ilk toxumlarının meydana gəlməsi, rəng və rəng münasibətlərinin estetik əhəmiyyətinin dərki və s.) buna misal ola bilər. Tədqiqatda bəşəriyyətin erkən dövrlərində gerçəkliyin “bədii təfəkkür”lə yanaşı, “arxaik təfəkkür”lə, eləcə də “mifik təfəkkür”lə dərk olunması qeyd edilmişdir.

Tədqiqatın **“Sinkretik təfəkkürün və duyumun ahəngdarlığı haqqında”** adlanan üçüncü yarımbölməsində qeyd edilmişdir ki, vahid biliyin hədsiz dərəcədə diferensiasiyası keçmiş dövrə aid bir çox yazılı mənbələrin izahında, bədii mədəniyyət nümunələrinin tədqiqində müəyyən maneələrin yaranmasına səbəb olmuşdur. Bu baxımdan, bədii irsin, ənənəvi mədəniyyətin öyrənilməsi keçmiş dövrün dünyagörüşünün əsas götürülməsini şərtləndirir.

Bəşəriyyətin erkən dövrləri üçün xarakterik olan sinkretiklik (əmək fəaliyyəti və bədii yaradıcılığın formaları ilə yanaşı) gerçəkliyin bədii dərkinin müxtəlif növlərinin-sözün, musiqinin, xoreoqrafiyanın, pantomimanın və s. birliyində özünü büruzə verməsi haqqında bəhs edilmişdir. Ayrılıqda səsin sinkretik təbiətinə nəzər yetirilmişdir.

Tədqiqat işində qeyd edilmişdir ki, bəşəriyyətin erkən dövrlərində gerçəklik “dalğa təfəkkürü” ilə qavranılırdı. Səs, rəng, plastik hərəkətlər, ritm və digər ifadə

vasitələrinin "dalğa" təbiətinə malik olması dünyanın dərkində alternativ yolun mövcudluğunu göstərir.

Tədqiqatın **"Dünya mənzərəsinin ruhən qavranılmasında səs fenomeninin rolu"** adlanan dördüncü yarımbölməsində Şərq dünyagörüşünə görə, gerçəkliyin yaranışının səslə bağlılığı, səsin sinkretik mənadaşıyıcısı, fikrin yaranışı kimi qəbul edilməsindən bəhs olunmuşdur.

Tədqiqatda qeyd edilmişdir ki, musiqi, xüsusilə də muğam prosessuallıqla bağlıdır. Orta əsrlərin musiqi risalələrində "makam" (muğam) sözünə deyil, bu sözə mənaca uyğun gələn dairə məfhumuna (ədəbiyyatda o "dövr", "daur" kimi adlandırılır) təsadüf edilməsi bu fikri sübuta yetirir. Tədqiqatda həmçinin muğamın struktur baxımından qlobal substansional Fikrin "həndəsi təzahürləri" olan həndəsi işarələrlə özünü büruzə verməsindən bəhs edilmişdir. Bu baxımdan, muğam-dəstgahın strukturunun konusvari, mərkəzləşmiş dairə və digər həndəsi işarələr əsasında qurulmasına xüsusi nəzər yetirilmişdir.

Tədqiqatın **"Mərasim, oyun və tamaşaların muğam dairələri"** adlanan beşinci yarımbölməsində qeyd edilmişdir ki, mərasim-mədəni dəyərlərin və mənaların ötürülməsi, fərdi mədəniyyətin sakral mənbəsinə, dərinliklərinə qovuşma formasıdır. Mərasimlərdə öz həyat ritmlərini kosmik hadisələrlə müqayisə edən insan prosessuallığın universal ritminə köklənərək, həqiqət səviyyəsinə qədər yüksəlir, səs, rəng, ornament, ritm və digər ifadə vasitələri ilə substansional konseptual mənaların dərkinə müvəffəq olur.

Araşdırmada ən qədim tarixi hadisə, etnoslar arasında əlaqə yaratmaq vasitəsi olan oyunların qədim xalqların həyatının çox müxtəlif tərəflərini, dünyagörüşünü və etiqadlarını əks etdirməsindən, sinkretik təfəkkürlə, canlı proseslə bağlılığından bəhs olunmuşdur. Oyunun tənzimləyici və istiqamətverici funksiyalarının insan həyatında çatışmayan tarazlığın daxil etməsinə şərait yaratması qeyd edilmişdir. Oyunun canlı proses kimi təzahürü və iştirakçılar tərəfindən yaşanması bu fenomendə irrasionallıq və rasionallığın, qanunauyğunluq və azadlığın dialektik bərabərliyi və tarazlığında özünü büruzə verməsi işıqlandırılmışdır. Qeyd edilmişdir ki, mərasimlər kimi ("Yuğ"), bəzi tamaşaların ("Şəbih") mahiyyəti süjet

xəttində cərəyan edən hadisələrlə deyil, əsas etibarilə prosesla, "batin-zahir", "həyat və ölüm" düsturu, muğam dramaturgiyası ilə bağlıdır.

**II fəsil "Muğam ənənəsinin vizual formaları"** adlanır və iki yarımbölmədən ibarətdir.

**"Dekorativ-tətbiqi sənətin muğam əsası"** adlanan birinci yarımbölmədə dekorativ-tətbiqi sənət sahəsi muğam ənənəsinin, canlı prosesin qeyri-musiqili təzahür forması kimi araşdırılır, strukturlaşma-kompozisiya quruluşu, melodik fikrin hərəkəti-ornamentlər, səs-rəng münasibətlərinə aydınlıq gətirilir. Dekorativ-tətbiqi sənət nümunələrinin müəyyən həndəsi işarə (konusvari, dairə, spiralvari) əsasında qurulan kompozisiyasını muğamın struktur quruluşu (materialın nümayişi, inkişafı, kulminasiya məqamı və formanın tamamlanması) ilə müqayisəli təhlili aparılmışdır.

Qeyd edilmişdir ki, maddi mədəniyyət nümunələri üzərindəki ziqzaqvari, dalğavari naxışlar, eləcə də cizgilərin plastikası ilə şərtlənən nəbati və zoomorf quruluşlu ornamentlər "dalğa" təfəkkürünün vizual təzahürləridir. Yüksələn və enən xətlərin növbələşməsinin ritmik təkrarına xovsuz xalçalara aid "Çətən"lərin üfüqi, dalğalı, "Gədirgə"lərin ziqzaqvari cığırlarında təsadüf etmək mümkündür. Yüksəlmə və enmələr muğam-dəstgahda melodik fikrin hərəkətində də izlənilir.

Rəng koloriti də prosesin dinamikasının vizual təzahür formalarından biridir. Qeyd edilmişdir ki, hər bir rəng ruhi təşəkkül prosesinin müəyyən mərhələsi ilə bağlı olaraq müəyyən hal-əhvalın yaranmasına və onun yaşanmasına təkan verir. Mahnı-rəqs xarakterli instrumental melodiya olub muğamın şöbələri arasında ifa edilən musiqi nümunələri də "Rəng" adlanır. "Rəng"lərin muğamların melodik-intonasiya, ritmik və məqam əsasını özündə əks etdirməsi, bir növ muğamın "melodik rəngi" ilə boyanır.

**"Miniatür sənətinin muğam əsası"** adlanan ikinci yarımbölmədə miniatür sənəti muğam ənənəsinin qeyri-musiqili təzahür forması kimi araşdırılmışdır. Qeyd edilmişdir ki, miniatür sənəti nümunələri ədəbi-bədii əsərin süjet xəttində baş verən hadisələri canlandırmır, xüsusi hal-əhvalın müşaiyəti ilə əsərin dramaturgiyasını, onun əsl mahiyyətini dərkinə, prosesə cəlb olunmağa impuls

verir. Miniatür sənəti zahiri, görünən tərəflə onun arxasında qalan batini mənanın vəhdəti, nisbəti, "batin-zahir" düsturu ilə bağlıdır. Miniatür sənəti nümunələrinin müəyyən həndəsi işarə (konusvari, spiralvari) əsasında qurulan kompozisiyası və rəng koloriti ədəbi-bədii əsərin mahiyyətini qavramağa, tamaşaçını müəyyən ritmə kökləməyə və fərqli hal-əhvalların yaşanmasına zəmin yaradır.

**III fəsil "Vizual sənətlərin müasir dövrü: avanqarddan muğam ənənəsinə qayıdış meyilləri"** adlanır.

Birinci yarımbölmədə **"Dekorativ-tətbiqi sənət" -** müasir dekorativ-tətbiqi sənət nümunələri muğam ənənəsinin vizual təzahür üsulları kimi araşdırılmışdır. Qeyd edilmişdir ki, indiki dövrün dekorativ-tətbiqi sənət nümunələri "xeyir və şər", "işıq və qaranlıq", "həyat və ölüm" münasibətləri timsalında "zahiri", görünən tərəf və "batini" mənanın nisbətinin, vəhdətinin əyani təzahürüdür. Dekorativ-tətbiqi sənət sahəsində zamanın tələbi ilə ayaqlaşan nümunələrin yaradılmasının, yeni ifadə vasitələrinə müraciətin, sinkretizm, assosiativ təfəkkürlə bağlı fikirlərin bu gün də aktual olması qeyd edilmişdir.

**"Təsviri sənət (Rəngkarlıq)"** adlanan ikinci yarımbölmədə müasir dövrün təsviri sənət nümunələri muğam ənənəsinin vizual təzahür üsulları kimi araşdırılmışdır. Qeyd edilmişdir ki, kodlaşdırılmış informasiyanın daşıyıcısı olan müasir dövrün incəsənəti gözlə deyil, şüurla, irrasional şəkildə qavranılır. Muğamın dramaturgiyasını, ruhi axtarış prosesini XX əsr Azərbaycan təsviri incəsənətində də izləmək mümkündür. Nağıl-əfsanəvi, folklor-mifoloji mövzuya müraciət edən rəssamların məqsədi konkret nağılların illüstrasiyası deyil, "batin-zahir" düsturunun vizual təzahürünü yaratmaq, konseptual fikri çatdırmaq, bununla da, tamaşaçını müəyyən hal-əhvala kökləmək, prosesə cəlb etmək olmuşdur.

**"Miniatür sənəti"** adlanan üçüncü yarımbölmədə müasir dövrün miniatür sənət nümunələri muğam ənənəsinin vizual təzahür üsulları kimi araşdırılmışdır. Qeyd edilmişdir ki, müasir dövrün miniatür sənət nümunələri şəxsiyyətin mənəvi paklanmasına, ruhi təşəkkülünə, ahəngdar inkişafına, həyat və yaradıcılıqda gözəllik meyarının dərkinə şərait yaradır. Miniatür sənəti sahəsində də yeni ifadə vasitələrinin axtarışı əsərlərin yaranması prosesində öncə mövcud olan ənənəyə

əsaslanmanı şərtləndirir. Bu mənada, müasir dövrə aid miniatürlər ruhi axtarışın, "batin-zahir" prinsipi, bu prinsipdən yaranan ahəngdarlığın, hal-əhvaldan doğan biliyin vizual təzahürü kimi özünü büruzə verir.

Tədqiqat işinin sonunda aşağıdakı **nəticələr** verilmişdir.

1.Dissertasiyada muğam və estetika anlayışlarının (idrak prinsipi, yaradıcılıq fəaliyyəti timsalında özünü büruzə verən) proseslə, ruhi axtarışla bağlılığı müəyyən edilmişdir. Muğam fenomeninin ruhi özək, idrak prinsipi kimi dərk edilməsinin bütövlükdə Azərbaycan ənənəvi mədəniyyətinin alternativ yollarla araşdırılmasına zəmin yaratması aşkar olunmuşdur.

2.Elmi təfəkkürdən (verbal) öncə mövcud olan bədii təfəkkürün (qeyri-verbal) müvafiq ifadə üsulları (səs, rəng, ritm, ornament, həndəsi işarə, simvol, dad, jest və s.) vasitəsilə konseptual fikrin ötürülməsində yeganə yol kimi özünü büruzə verməsi qeyd edilmişdir.

3.Bütövlükdə proses, silsilə kimi dərk edilən ruhi axtarış, idrak prinsipi, yaradıcılıq fəaliyyəti ilə eyniləşən muğamın konseptual fikirlə nurlanma hadisəsidir. "Substansional biliyə" nüfuz olmanın irrasional və rasional qütblərin fəallığının nisbəti zəminində baş verməsi müəyyən edilmişdir.

4.Dünyada baş verən bütün proseslər ahəngdarlıq qanunu vasitəsilə tənzimlənir. Musiqinin ümumdünya ahəngdarlıq qanununun akustik (səs), dekorativ-tətbiqi sənətin, miniatür sənətinin, təsviri sənətin vizual (kompozisiya quruluşu, ornament, rəng koloriti) təzahür olması qeyd edilmişdir.

5.Muğam prosesin dinamikası, yaradıcılıq fəaliyyəti, ruhi axtarışla bağlı hadisədir. Muğamın bir fenomen kimi özünü büruzə verməsi onu Azərbaycan bədii mədəniyyətinin konseptual bünövrəsi kimi dərkini şərtləndirir.

6.Konseptual fikir "işıq-qaranlıq", "xeyir-şər", "həyat-ölüm" münasibətləri timsalında özünü büruzə verən "batini"məna və "zahiri" tərəfin nisbəti ilə bağlıdır. Bəzi oyunların, "Yallı" rəqsinin, "Zorxana" tamaşalarının, "Yuğ" mərasiminin, "Şəbih" tamaşalarının mahiyyəti, özəyi "batini" məna və "zahiri" tərəfin nisbəti, muğam dramaturgiyası üzərində köklənmişdir və canlı proses kimi yaşanır.

7.Muğam ənənəsi Azərbaycan bədii mədəniyyətinin konseptual əsasıdır. Dekorativ-tətbiqi sənəti nümunələrinin kompozisiya quruluşu, ornamentləri, rəng koloriti ümumdünya ahəngdarlığının, prosesin dinamikasının vizual təzahür üsullarıdır.

8.Miniatür sənəti nümunələri ədəbi-bədii əsərin süjet xəttində baş verən hadisələri əks etdirmir, xüsusi hal-əhvalın müşaiyəti ilə "batini" məna və "zahiri" tərəfin nisbətinə, muğam ənənəsi ilə bağlı mahiyyətinə, dramaturgiyasına nüfuz etməyə zəmin yaradır.

9.Müasir dövrün dekorativ-tətbiqi sənət, miniatür sənəti, eləcə də təsviri sənət nümunələri keçmiş dövrün dünyagörüşünə, muğam ənənəsinə əsaslanaraq konseptual məzmunlu fikrin, ruhi təşəkkül-axtarışın qeyri-musiqili təzahürü kimi özünü büruzə verir. Azərbaycan bədii mədəniyyətinin vəhdət halında araşdırılması yalnız vahid etnomədəniyyətin deyil, bütün ümumbəşəri mədəniyyətin tədqiq edilməsi ilə bağlıdır.

Bütün qeyd edilənlər belə fikrin yaranmasına əsas verir ki, ümumbəşəri başlanğıc, "nurlanma" hadisəsi, yaradıcılıq fenomeni, prosesin dinamikası ilə bağlı "muğam idrak prinsipi" yalnız Azərbaycan bədii irsinin deyil, eyni zamanda ümumbəşəri mədəniyyətin araşdırılmasında açar rolunu oynaya bilər.

**Dissertasiya mövzusu üzrə çap olunmuş məqalələrin siyahısı:**

1."Azərbaycan mədəniyyəti kontekstində səs problemi". // Azərbaycan milli musiqisinin tədqiqi problemləri. Elmi məqalələr toplusu. IV buraxılış. 2001, s.189-191.

2."Azərbaycan dekorativ-tətbiqi sənətinin bəzi sahələrinin öyrənilməsi (metodoloji aspekt)". // Ekologiya, fəlsəfə, mədəniyyət. Elmi məqalələr məcmuəsi. 35-ci buraxılış. 2003, s.293-296.

3."Muğam rəng təfəkkürü nöqteyi-nəzərindən". // Elmi axtarışlar. IX toplu. ("Filologiya məsələləri"nin xüsusi buraxılışı). 2003, s.172-176.

4."Azərbaycan mədəniyyətində muğam təzahürü". // Azərbaycan milli musiqisinin tədqiqi problemləri. Elmi məqalələr toplusu. V buraxılış. 2004, s.59-63;

5.“Zahir-batin” və Azərbaycan dekorativ-tətbiqi sənətinin bəzi sahələri”. // “Qobustan” sənət toplusu. №1. 2005, s.48-49.

6.“Miniatürlərin səs vasitəsilə qavranılması”. // “Qobustan” sənət toplusu. №2. 2006, s.87-91.

7.“Yaradıcılıq prosessuallıq nöqteyi-nəzərindən”. // “Bilimsel eksen”. Uluslararası hakemli sosyal bilimler dergisi. №2. Ankara-Turkiye. 2010, s.202-207;

8.“Bədii mədəniyyətdə “muğam düşüncə prinsipi”nin təzahürü”. // Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı Qəhrəmanı Ziya Musa oğlu Bünyadovun 90 illiyinə həsr olunmuş beynəlxalq elmi simpoziumun materialları (Bakı, 7-8 may 2012-ci il). Bakı, “Elm”, 2012, s.405-408.

9.“Müasir dövrün miniatür sənətində muğam təfəkkür tərzinin təzahürləri”. // “Qobustan” sənət toplusu. №3. 2012, s.61-64.

10.“Xalçaçılıq sənətində “muğam idrak prinsipi”nin təzahürü”. // Təsviri və dekorativ-tətbiqi sənət məsələləri. №2 (10). 2012, s.70-76.

11.“Müasir xalçalarda universal mənaların təzahürü”. “İqor Burqanov. Müasir xalça”. Beynəlxalq elmi konfransın materialları. Bakı-Moskva. 2013, s.56-76.

12.“Muğam konseptuallığı miniatür sənətində”. // Azərbaycan muğamşünaslığı: problemlər, perspektivlər. Bakı, “Təknur”, 2015, s.305-315.

13.“Азербайджанское изобразительное искусство XX века: гармоничное созвучие авангарда и традиции”. // Поиск. Международный научный журнал-приложение Республики Казахыстан. №2 (2). 2015, с.25-30.

14.“Процессуальность как концептуальная основа Тенгрианства”. // Тенгрианство и эпическое наследие народов Евразии: истоки и современность. Материалы Международной научно-практической конференции (20-24 сентября 2015г., Камчия, Болгария) София, 2015. с.212-217.

**Туранханым Гидаят кызы Ширзадова**

**Роль мугамной традиции в формировании эстетических принципов художественной культуры Азербайджана**

**РЕЗЮМЕ**

Основной целью настоящего исследования «Роль традиции мугама в формировании эстетических принципов художественной культуры Азербайджана» является изучение образцов визуального традиционного наследия - декоративно-прикладных, миниатюры и изобразительного искусства, с опорой на единую концептуальную базу, согласующуюся с восточным принципом познания и восточным мировоззрением. В качестве единой концептуальной основы в освещении тех или иных искусствоведческих вопросов рассматривается феномен мугама. В работе предпринята попытка осознания сути мугама как иррационального способа постижения и отражения законов мирапорядка и гармонии. Будучи единым духовным ядром мировой культурной целостности, мугам как явление, одновременно, как творческий принцип сыграл определяющую роль в развитии, имеющей непосредственное отношение к первоистоку, культуры Азербайджана. В работе приводятся и анализируются наглядные доказательства визуализации мугамного мышления в культуре и искусстве Азербайджана как в далеком прошлом, так и в настоящем.

Поставленные в работе цель и задачи определили структуру исследования, состоящего из введения, трех глав, заключения, библиографии и приложения.

**Первая глава «Мугам как концептуальное ядро восточной традиционной культуры»**, состоит из пяти подразделов. Особое внимание в настоящей главе уделяется специфике иррационального познания. Акцентируется важность учитывания двух факторности восточного познания, выраженная формулой «батин-захир» (внутреннее - внешнее) и определяющей роли внутреннего процесса в духовном восприятии. Высказывается мысль о специфике духовного познания, связанного с

движением, то есть о временной, музыкальной природе духовного восприятия. Отдельно расматривается синкретическая природа звука. Специальное внимание уделяется философии «жизнь-смерть», определившей драматургию обрядов и мугам-дастгяха, рассматриваются геометрические, цветовые способы ее трансляции.

**Вторая глава - «Визуальные формы мугамной традиции»** состоит из двух подразделов. В первом подразделе на примерах декоративно прикладного искусства рассматриваются различные формы визуализации мугамного мышления. В нем освещается вопрос изначально концептуального содержания знаков, выражаемых формой отдельных предметов, их структурой. Связь с мугамным мышлением прослеживается в пластическом, колористическом и динамическом решении сохранившихся образцов декоративно-прикладной культуры. Во втором подразделе аналогичные вопросы рассматриваются на примерах миниатюрной живописи.

**Третья глава - «Современный период визуального искусства: тенденции возврата от авангарда к мугамной традиции»** состоит из трех подразделов. На примерах декоративно – прикладного, изобразительного искусства и миниатюры прослеживаются новые, современные формы проявления мугамной генетической памяти в азербайджанском авангардном искусстве. Отмечается наиболее примечательная сторона авангардного искусства, как искусства состояний, сближающая его с мугамным творчеством.

В **заключении** обобщаются результаты всего исследования.

**Turankhanim Hidayat Sirzadova**

**The role of mugham traditions in the formation of aesthetic principles of artistic culture of Azerbaijan**

**SUMMARY**

The main purpose in the scientific research work "The role of mugham traditions in the formation of aesthetic principles of artistic culture of Azerbaijan" is the study of traditional heritage-decorative-applied art, Eastern outlook of visual appearance of miniature art and descriptive art to be based on unit conceptual basis, which connects with the Eastern cognition principles. In enlightening of such and other fine art issues has investigated the mugham phenomena in the type of unit conceptual basis. In the scientific research work has tried to the irrational comprehensibility and reflection of the world law and harmony, about the mugham essence. Mugham being the unit spiritual basis of completeness of the world culture played definable role as the creative principles in the directly early development of Azerbaijan culture. In the research work has obviously given some samples of mugham thought that existed in the present and past culture and art of Azerbaijan also they are analysed.

In the dissertation work the main purposes and positions have determined the structure of the work, its introduction, three chapters, conclusion, reference and additions.

The first chapter – "**Mugham as the conceptual fundament of the eastern culture**" consists of five paragraphs. In the paragraphs has given special attention to the specificity of irrational thought. Here has noted the importance of definable role of eastern thought that is expressed with the "Batin-zahir" (internal-external) formulas and its role in the interior processes of double factors and spiritual cognition. Here has also given attention to the specificity of spiritual cognition about the motions, it means the spiritual cognition is connected with the time, and nature of the music. Separately has looked through the syncretic nature of the sounds. Also specially looked through the ceremonies and mugham-dastgah that

determines the “life and death” philosophy, and given attention to its transmission by the mean of geometrical signs and colours.

The second chapter – “**Visual forms of mugham traditions**” consists of two paragraphs. In the first paragraph in the sample of decorative-applied art samples has investigated the different visual forms of mugham thought. Here has enlightened the separately forms of things, first of all, their signs that connect with the conceptual maintenance that expresses with their structure. Following the plastic, colouration and dynamic solution of decorative-applied art of mugham thought. In the second paragraph, have clarified analogical issues in the sample of miniature art samples.

The third chapter – “**The modern period of visual art: from vanguard coming back to the mugham traditions**” consists of three paragraphs. In the sample of decorative-applied art, descriptive art and miniature art has investigated the new and modern thinking forms of genetic memory of mugham of the Azerbaijan vanguard art.

In the **conclusion** has generalized whole results of the scientific research work.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**
**КУЛЬТУРЫ И ИСКУССТВА**

*На правах рукописи*

**ТУРАНХАНЫМ ГИДАЯТ кызы ШИРЗАДОВА**

# РОЛЬ МУГАМНОЙ ТРАДИЦИИ В ФОРМИРОВАНИИ ЭСТЕТИЧЕСКИХ ПРИНЦИПОВ ХУДОЖЕСТВЕННОЙ КУЛЬТУРЫ АЗЕРБАЙДЖАНА

6219.01 – Культурология и его общие вопросы

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по искусствоведению

**БАКУ-2015**